# AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 10/22

Bakı şəhəri 31 may 2019-cu il

Akademik Vladimir Volobuyevin
110 illik yubileyi haqqında

Azərbaycan Respublikasının Prezidenti torpaqşünaslıq elmi sahəsində görkəmli alim, AMEA-nın həqiqi üzvü, SSRİ Elmlər Akademiyasının müxbir üzvü, kənd təsərrüfatı elmləri doktoru, professor, iki dəfə SSRİ Dövlət mükafatı laureatı, Əməkdar Elm xadimi Vladimir Rodionoviç Volobuyevin 110 illik yubileyinin qeyd edilməsi haqqında 14 may 2019-cu il tarixli 1174 nömrəli Sərəncam imzalamışdır.

Vladimir Volobuyev 1909-cu il iyul ayının 25-də Rusiyanın Yekaterinodar (indiki Krasnodar) şəhərində anadan olmuşdur. O, 1930-cu ildə Kuban Kənd Təsərrüfatı İnstitutunu bitirmiş, 1937-1939-cu illərdə Zaqafqaziya Su Təsərrüfatı Layihə İnstitutunda (indiki Azərbaycan Dövlət Su Təsərrüfatı Layihə İnstitutu) Torpaq-meliorasiya sektorunun direktoru olmuşdur. 1949-cu ildən 1987-ci ilə qədər Azərbaycan Elmlər Akademiyasının Torpaqşünaslıq və Aqrokimya İnstitutunda Torpaqların meliorasiyası laboratoriyasının müdiri, elmi işlər üzrə direktor müavini, direktor vəzifələrində çalışmış, müxtəlif illərdə (1958-1959, 1980-1987) Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti, 1959-cu ildən 1980-ci ilə kimi Azərbaycan Elmlər Akademiyasının Biologiya və Kənd Təsərrüfatı Elmləri Bölməsinin akademik-katibi olmuşdur.

Vladimir Volobuyevin elmi fəaliyyəti, əsasən, genetik torpaqşünaslıq və şoran torpaqların meliorasiyası, meliorasiyanın və meliorativ rayonlaşdırmanın ərazinin geomorfologiyası ilə əlaqələndirilməsi, relyefin plastikasından istifadə etməklə geomorfoloji xəritələrin tərtibi, torpaqla iqlim arasındakı qarşılıqlı əlaqə, torpaqların ekologiyası, torpaqəmələgəlmənin energetikası və s. elmi problemlərin tədqiqinə həsr olunmuşdur.

Tanınmış alim 5 monoqrafiya, 200-ə yaxın məqalə, 4 xəritə və 5 patentin müəllifi olmuşdur. Onun rəhbərliyi ilə 15 namizədlik və 2 doktorluq dissertasiyası müdafiə edilmişdir. Alim 10 il SSRİ EA-nın “Почвоведение” (“Torpaqşünaslıq”) jurnalının baş redaktoru

olmuşdur.

Akademik Vladimir Volobuyevin elmi və elmi-təşkilati fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, iki dəfə SSRİ Dövlət mükafatı laureatı, Əməkdar Elm xadimi fəxri adlarına, həmçinin Mendeleyev adına mükafata layiq görülmüş, iki dəfə Qırmızı Əmək Bayrağı, Xalqlar Dostluğu, Şərəf Nişanı ordenləri ilə, V.V.Dokuçayev adına Qızıl medalla təltif olunmuşdur.

Qeyd olunanları nəzərə alaraq, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin akademik-katibi, akademik Əhliman Əmiraslanova tapşırılsın ki, akademik Vladimir Volobuyevin 110 illik yubileyinə həsr olunmuş yığıncaq keçirilsin.
2. AMEA-nın Mərkəzi Elmi Kitabxanasına (tibb üzrə fəlsəfə doktoru Leyla İmanova) və AMEA-nın “Elm” Nəşriyyatına (Səbuhi Qəhrəmanov) tapşırılsın ki, akademik Vladimir Volobuyevin seçilmiş elmi əsərlərinin nəşri təmin edilsin.
3. AMEA Rəyasət Heyəti aparatının Mətbuat və informasiya idarəsinə (Zülfüqar Fərzəliyev) və AMEA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutuna (AMEA-nın müxbir üzvü Əlövsət Quliyev) tapşırılsın ki, kütləvi informasiya vasitələrində akademik Vladimir Volobuyevin elmi, elmi-təşkilati və ictimai fəaliyyəti işıqlandırılsın.
4. AMEA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutuna (AMEA-nın müxbir üzvü Əlövsət Quliyev) tapşırılsın ki, institutda akademik Vladimir Volobuyevin 110 illik yubileyinə həsr olunmuş elmi sessiya keçirilsin.
5. Qərarın icrasına nəzarət AMEA-nın prezidenti, akademik Akif Əlizadəyə həvalə edilsin.

AMEA-nın prezidenti — akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi — AMEA-nın müxbir üzvü Əminağa Sadıqov

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ APARATI PROTOKOL ŞÖBƏSİ